Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Azərbaycanda talışlar - multikultural mühit və dəyərlərin əyani daşıyıcılarından biri...

**Multikultural dəyərlərə sahib olan Azərbaycan tolerantlığın əbədi ünvanı kimi şöhrətlənib. Azərbaycan Respublikasının sabiq Prezidenti mərhum Heydər Əliyev deyirdi: "Azərbaycanın varı, dövləti təkcə onun pambığı, yeraltı, yerüstü sərvətləri deyil, onun ərazisində yaşayan xalqlardır".**

Bu, Azərbaycan reallığına, onun çeşidli tərkibinə, müxtəlif mədəniyyətlərlə çulğalaşan həyat tərzinə verilən qiymətdir. Heydər Əliyev hər zaman respublikamızın ərazisində yaşayan bütün xalqların nümayəndələrinə böyük sayğı, sevgi ilə yanaşır, onları cəmiyyətimizin bir parçası kimi dəyərləndirirdi.

**Azərbaycan bu gün bütün azərbaycanlıların Vətənidir**

Azərbaycanın etnik mənzərəsi qədim xalçalarımıza bənzəyir. Onlar kimi qədim, təkrarolunmaz və rəngarəngdir. Sayından asılı olmayaraq, hər bir xalq bu nəfis "xalçanın" əvəzolunmaz və təkrarsız naxışıdır. Onların tarixən bu ərazidə formalaşmış birliyi isə zaman keçdikcə unikal və mükəmməl harmoniyanı, tarixin sanaqlarından çıxan şah əsərini - Azərbaycançılıq məfkurəsini yaradıb. Azərbaycançılıq ideyasının banisi, ümummilli lider Heydər Əliyev 1993- cü ildə Azərbaycanda yaşayan, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların vahid amal ətrafında birliyinin, həmrəyliyinin əhəmiyyətindən danışarkən bunları deyib: "Azərbaycan bütün azərbaycanlıların Vətənidir". Ümummilli liderin ən böyük məqsədlərindən biri bu idi ki, bölünməz Azərbaycan xalqı bəşər tarixində öz üzərinə düşən missiyanı aydın dərk edərək ortaq maraqlarımızı özündə əks etdirən taleyüklü ideologiyanın Azərbaycançılıq məfkurəsinin formalaşmasına təkan versin. Uzun müddət sonra Prezident İlham Əliyev həmin tarixi missiyaya sədaqətin dəyişilməz olduğunu bir daha nümayiş etdirərək bildirib ki, müasir, dinamik inkişaf edən, demokratik dövlət olan Azərbaycan bu gün bütün azərbaycanlıların Vətənidir.

**Azərbaycan milli dövlət radiosunda talış dilində verilişlər hazırlanır**

Azərbaycan Respublikasının cənub bölgəsi sayılan Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı rayonları ərazisində kompakt və həm də azərbaycanlılarla qarışıq halda yaşayan talışlar tarixən başlıca məskunlaşma ərazilərindən başqa Azərbaycanın başqa regionlarında, habelə Bakı, Sumqayıt kimi sənaye şəhərlərində də yaşamağa başlamışlar. 1999-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına görə, talışların sayı 76,8 min nəfər olub. Talışlar əkinçilik, maldarlıq, ipəkçilik, bağçılıq, üzümçülük, arıçılıq və balıqçılıqla məşğul olurlar. Respublikamızda azsaylı xalqların və milli azlıqların qorunması, maddi və mənəvi mədəniyyətlərin öyrənilməsi məqsədilə onlarla mədəniyyət mərkəzi yaradılıb. Bunlardan biri də "Talış Mədəniyyət Mərkəzi"dir. Onun fəaliyyəti nəticəsində Lənkəran-Astara bölgəsinin müxtəlif yaşayış məskənlərində, mədəniyyət evlərində milli rəqs və mahnı kollektivləri yaradılıb. Bundan başqa, Azərbaycan milli dövlət radiosunda talış dilində verilişlər hazırlanır. Azsaylı xalqlarla bağlı dövlət tədbirlərindən biri də talış dilində I-IV siniflər üzrə məktəblərin açılmasıdır.

Əsrlər boyu Azərbaycanda 80-dən çox etnosun nümayəndəsi yerli etnos olan azəri türkləri ilə yanaşı yaşayır. Bu tarixi təcrübə azsaylı etnosların və etnik qrupların, yoxa çıxma təhlükəsinin aradan qaldırılmasına, etnik və konfessional fərqlərə baxmayaraq, sülh və həmrəylik şəraitində yaşamasına parlaq nümunədir. Etnik çoxluqla yan-yana yaşayan digər xalqlara münasibətdə tolerantlıq ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi islam dininə xas dözümlülüklə, müxtəlif etnik icmaların vahid ərazidə tarixən təşəkkül tapmış birgəyaşayışı ilə izah olunur. Azərbaycanın və Azərbaycan xalqının bütün tarixi ərzində bir dəfə də olsun dini və etnik ədavət, sayından asılı olmayaraq, etnik azlıqlara münasibətdə ayrıseçkilik faktları qeydə alınmayıb. İlk növbədə ona görə ki, Azərbaycan dövləti onların hər birinə eyni dərəcədə qayğı göstərir.

**Bir dəfə də olsun, etnik azlıqlara münasibətdə ayrıseçkilik faktları qeydə alınmayıb**

Ölkəmizdə əhəmiyyətli sayda talış etnosuna məxsus insan yaşayır. Tarixin heç bir dövründə həmin etnosla yerli türklər arasında hər hansı bir etnik qarşıdurma yaşanmayıb. Bu vaxta qədər talışlara qarşı heç bir ayrıseçkilik tətbiq olunmayıb. Onlar yerli türklər kimi Azərbaycanı öz dövləti hesab edir. Azərbaycan bütün etnosları ilə bir dövlətə çevrilib. Bu dövlət həm türkün, həm də talışın, ləzginin, tatın, udinlərin, avarların, saxurların və digər azsaylı etnosların dövlətidir. Tarixə nəzər salsaq görərik ki, bu azsaylı etnosların hər biri Azərbaycanın bütövlüyü uğrunda əlindən gələni edib. Dağlıq Qarabağ münaqişəsi zamanı şəhid olan talış qardaşlarımızı da unutmamışıq. Yəni bu dövlət təkcə türkün yox, həmçinin siz talışların və digər azsaylı etnosların dövlətidir. Bu dövlətin müstəqilliyi və ərazi bütövlüyü uğrunda yerli etnoslarla birgə minlərlə şəhid vermişik. Vaxtilə Əlikram Hümbətov erməni havadarlarının dəstəyi ilə "Talış-Muğan Respublikası"nı qondardı, amma məqsədinə nail ola bilmədi. Talışlar Əlikramın yox, ulu öndərin ardınca getdi. Çünki talışların zehnində separatçı niyyət olmayıb, olmayacaq. Bu yerli etnos Azərbaycanı özünün dövləti hesab edir.

**Talışlar müstəqilliyimiz, bütövlüyümüz, inkişafımız, gələcəyimiz uğrunda əzmlə, igidliklə vuruşan etibarlı, dəyanətli insanlardır**

Xalq yazıçısı Sabir Rüstəmxalı talışlarla bağlı bunları deyir: "Cənub bölgəsində yaşayan türkləri də, talışları da yaxşı tanıyıram və onların arasında heç vaxt ayrı-seçkilik görməmişəm. Bəlli sifarişləri yetinə yetirən və süni ayrıseçkilik salmaq istəyənlər gəlib-gediblər, lakin ümumu birlik, mehribançılıq, Vətənin taleyi üçün məsuliyyət hissi heç vaxt dəyişilməyib. Hə



mı bir-biri ilə qohum-qardaşdır.

Ötən illər də göstərdi ki, talışlar yurduna, vətəninə bağlı olan zəhmətkeş, sadə, Azərbaycan türkləri ilə, yəni bizlərlə problemi olmayan xalqdır. Əvvəlki savaşlarda olduğu kimi, bu müharibədə də talışlar qəhrəmanlıq göstərir və ən çox şəhid verən bölgələrdən biri elə Talış zonasıdır. Belə olan halda ermənilərin "talış kartı"nın bir mənası qalmır. Ermənilər zaman-zaman Azərbaycandakı digər azsaylı xalqlar arasından "zəif bənd" tapmağa, bizə ziyan vurmağa çalışıblar. Amma bu düşmən siyasətinin heç bir nəticəsi olmayıb və bu xalqlar Azərbaycanda ayrıseçkilik görmədən və ayrıseçkilik salmadan yaşayırlar. Onların elmi-mədəni, siyasi yüksəlişinə heç bir maneə yoxdur. Talışlar Azərbaycanın dövlər maragını hər şeydən yüksək tutan, həyatımızın bütün sahələrində yorulmadan, halallıqla və torpağa bağlılıqla çalışan, müstəqilliyimiz, bütövlüyümüz, inkişafımız, gələcəyimiz uğrunda əzmlə, igidliklə vuruşan etibarlı, dəyanətli insanlardır. Ona görə araya nifaq salmaq cəhdlərinin heç bir mənası yoxdur...Biz hamımız bir yerdə azərbaycanlıyıq. Yaşasın Azərbaycan!"

**Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələrinin ruh yüksəkliyi ilə, Vətənini, torpağını qorumaq naminə könüllü olaraq orduya yazılması…**

Qeyd edilməsi mühümdir ki, MDB ölkələri içərisində Azərbaycanın milli azlıqların hüquqlarının qorunması ilə bağlı qoşulduğu beynəlxalq konvensiyalar qanunvericilik baxımından daha mükəmməldir. Belə ki, Azərbaycan BMT Baş Assambleyasının 1992-ci il 18 dekabr tarixində milli, etnik, dini və dili azlıqlara mənsub şəxslərin hüquqları ilə bağlı qəbul etdiyi Bəyannaməyə və Avropa Şurasının 1995-ci il fevralın 1-də "Milli azlıqların hüquqlarının qorunması haqqında" qəbul etdiyi Çərçivə Konvensiyasını təsdiq etməklə bu qanuna 13 iyun 2000-ci ildə qoşulub. Bir sözlə, bu gün Azərbaycan yerli aborigen tayfa birləşmələri və xalqlarla yanaşı, öz taleyini bu torpağa bağlayan bir sıra milli azlıqların, azsaylı xalqların və etnik qrupların doğma Vətəninə çevrilib. Bugünə qədər ölkəmizdə heç bir etnik və dini zəmində münaqişə baş verməyib və bu proses indiki gərgin siyasi şəraitdə də davam etdirilir. Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələrinin ruh yüksəkliyi ilə, Vətənini, torpağını qorumaq naminə könüllü olaraq orduya yazılması və hətta bu yolda şəhid olmağı belə gözə alması bunun bariz nümunəsidir.

**Talışlar daima Azərbaycan dövlətçiliyinə sadiq olublar**

Azərbaycanda yaşayan xalqlar arasına nifaq salınmasına yönələn erməni təbliğatının əbəs cəhdlərini xüsusi qeyd etmək lazımdır. Azərbaycan qədimdən bəri müxtəlif sivilizasiya və mədəniyyətlər arasında körpü olub. Müxtəlif xalqların və konfessiyaların nümayəndələri əsrlərdir burada dinc yanaşı yaşayırlar. Bu gün Azərbaycan dünya birliyi tərəfindən tolerantlıq, dini dözümlülük və multikulturalizm nümunəsi kimi tanınır. Buna görə də ermənilərin Azərbaycanda yaşayan xalqları bir-birinin üstünə qaldırmaq cəhdləri heç bir perspektivə malik deyil. Həmçinin, erməni saxtakarlarının Azərbaycanda yaşayan milli azlıqları onların Azərbaycan-türk çoxluğu tərəfindən təqibə məruz qalmasına inandırmaq cəhdi də əbəsdir. Ölkəmizdə yaşayan ləzgilər, talışlar, yəhudilər və başqaları "böyük Ermənistan" cinayətkar ideologiyasının daşıyıcıları tərəfindən gördükləri zorakılıq, vəhşilik və qəddarlıq haqqında məlumatı öz tarixi yaddaşında qoruyub saxlayır.

Ermənilər Azərbaycanda bərabərhüquqlu vətəndaşlar kimi yaşayan talışlarla bağlı bütün təxribatlara əl atırlar. Öz ölkələrində bir nəfər də olsun talış olmadığı halda, İrəvanda 10 nəfər redaksiya heyəti olan talış dilində televiziya açıblar. Təbii ki, məqsəd bəllidir. Oradan aparılan təbliğatla Azərbaycandakı talışlarla dövlətin münasibətini gərginləşdirməyi istəyirlər. Ancaq bunlar heç bir fayda vermir. Çünki talışlar daima Azərbaycan dövlətçiliyinə sadiq olublar.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**